# ERMƏNİ KƏŞFİYYATÇISININ AZƏRBAYCANDAN ÇIRPIŞDIRDIQLARI



*Sədrəddin DAŞKÖRPÜLÜ*

Belədi də, bunlar oğru millətdir, bizdə nə gördüsə müxtəlif yollarla özününküləşdirir. Tariximiz, ədəbiyyatımız, musiqimiz, torpağımız, kulinariyamız- nəyimiz varsa, hətta məndə elə bir fikir formalaşdı ki, yəni şübhə yarandı ki, görəsən mən mənim özümünəmmi, və ya bu atam mənin, anam da mənim atamdırmı, anamdırmı, hakəza digər qohumlar... Allah sən saxla adam ağlını itirər, amma özünün olmayan nəyi itirəsən, yox bu olmadı. Burda yanıldım. Onlar nəyimizə sahib çıxsalar da ağlımıza sahib çıxa bilməzlər. Bu bizim yeganə qeyriləşə bilməyən milli sərvətimizdir ki, bizə bu qədər sadiqdir. Yəni bu ağlı heç kim, hətta ermənilər də istəməz. Çünki bizim ağlımızı mənimsəsələr, özləri bizdən betər günə düşə bilərlər. Onlar hər şeyi məhz öz ağılları ilə mənimsəyib özününküləşdirirlər. Buna görə bizim ağlımız onların nəyinə lazım. Olsa, olsa sonrakı ağlımızı istəyərlər. Bu "erməni deyir, musurmanın sonrakı ağlı məndə olaydı" məsəlini də heç onlar deməyib. Onu da biz uydurmuşuq, bu dəfə onlar istəməsə də özümüz verib onlara mal etmişik. Əslində bu da onlara lazım deyil, əvvəlki ağlımız nə idi ki, sonrakı da nə ola. Molla Nəsrəddin demiş, "Heç cavanlığım da bir... deyilmiş."

Hə çırpışdırmaq deyirdim axı. Hər şeyimizi aldılar ("daje ştanı da") indi də başladılar anektodlarımızı çırpışdırmağa. İndiki əhvalatın qəhrəmanı bir erməni razvedçikidir. O bədbəxt də qəribə bir xəstəliyə tutulub. Onu nəyə göndərirlər göndərsinlər, dəxli yoxdu, biz tərəfə keçdimi, sadəcə anektodumuzu toplayır. Başqa heç nə. Mən çox baş sındırandan sonra sonrakı axlımla bu nəticəyə gəldim ki, bu kimdirsə, çox bic erməniди, hətta o qədər bicdir ki, bu günə qədər yaranan bütün ermənilərin bütün bicliklərinin cəmindən onun bicliyi çoxdur.

Ə, bə niyə sadaja anektod yığır. Anladım (əlbəttə sonrakı axlımla). Ona görə yığır ki, bizim nə gücümüz varsa elə anektodlarımızdadı. Bütün gücümüz də, gücsüzlüyümüz də. yetər ki, onu çözə biləsən. Çözdünmü, bitdi, başqa hərbi, strateji, daha nə bilim, nə ji bilgilərə ehtiyac yoxdu. Yadıma burada o çoxbilmiş Rixard Zorge düşür...

Erməni razvedçikin bizdən çırpışdırıb qərargahlarına apardığı anektodun biri: Bir azərbaycanlı qoyun otarır. (Hamı bizə çoban kimi baxır axı. O səbəbdən anektodu qoyunla başlayır.) Dağdan düzə enir, görür ki, iki qoşa dəmir paralel qollar kimi uzanıb gedir. Altına da bərabər ölçüdə nəsə döşəyiblər. Gözünü çox bərəldib xeyli baxır, baş sındırır, anlaya bilmir, bu nədi. Bir yana çıxara bilmir. Həm mövcud axlı ilə, həm əvvəlki, həm sonrakı.axlı ilə. Yox, sonrakı hələ sonra olacaq. Adama maraq verən bu uzun dəmirlərin belə parlaq olması, bir də çoban üçün ən mühümü, bu qoşa dəmirlər boyu otun belə çox olması. "Əcaba buranı kimsə otarmayıbmı?" Nə isə sürünü yayır dəmiryol boyu. Özü də bir az kənarda hündür bir qıraşlıqda uzanıb özünü verir günə, qoyunların xırpaxırpına xumarlanır. Birdən bu xırpaxırpa bu vaxta qədər eşitmədiyi bağır yarıb öd qoparan bir səs qarışır. Başını qaldırıb istirahətini pozan bu səsin sahibini qarğaya-qarğaya səs gələn tərəfə boylanır. Bir də görür ki, uzun və yekə bir şey sürətlə dəmirlərin üstü ilə taqqatukla sürünü haqlayıb. Çoban vəziyyəti dərk edib nə edəcəyini düşünənə qədər qatar sürünü "yarıb" gedir. Çoban mat-mat bir dəmirlər üstə leşi qalan qoyunlara, bir də upuzun heyvərəyə baxaraq "Zalım balası" yaxşı ki, uzununa gəlib getdi, eninə getsəydi, bir qoyun salamat qalmazdı",-deyir.

İkincisi: Rayonla kənd arası işləyən bir avtobusda iki həmkəndli olur. Bunlardan biri bir dağ kəndində müəllim işləyir. Rayon təhsil şöbəsindən bu müəllimə gedibgəlmək üçün bir at veribmişlər. Amma bu gün nədənsə avtobusla gedir. Bu müəllimə xalq arasında eşşək Bakir deyirlərmiş. Bakirin həmkəndlisinin məzəsi tutur. Ucadan deyir ki, ay camaat, deyirlər, təhsil şöbəsi kənd müəlliminin qədrini bilmir. Amma baxın, eşşəklərə belə at bağışlayır ki, minib getsinlər. O da atı bəyənməyib avtobusla gedir. Bakir bu təhqirə dözmür və kəndlisinin ağzına bir yumruq ilişdirir. Kəndlisinin ağzı qanla dolur. Əlinin dalı ilə ağzının qanını silir və "Əəə, yaxşı ki qabaq ayağı ilə vurdu, dal ayağı ilə vursaydı bir dişim salamat qalmazdı."-deyir.

Üçüncüsü. MN-nin "N" mərkəzi qərargahından təzə yığılan əsgərlərlə bağlı bilgi almaq üçün rayon polis bölmələrinə məktub göndərilər. Məktubda hər çığırışçı (çağırışçı) haqqında ailələrinin xəbəri olmadan bilgi toplayıb göndərmək tələb olunar.

-Bunu neynir, ara onnar?

-Neynəməyi sənin nəyinə lazım. Neynəməyi onnara lazım ki, gorax bu gadanın "çp"si varmı, yoxmu? Ama biza lazım olanı odu ki, gorax polislar nayniyir. Ha polislerin ağzı qulağında. Sevincdən uçurlar.

-Ba, niya?

-Bası odu ki, tez zang edirlər çığırışçıların dədələrinə. Başdıyıllar onnarı çığırışdırmağa. Ki oğlun uçun harbi hissadan maytub galib. Cavabında pilus yazax, minus yazax? Dadaları da uşaxların yeri soyux olmasın deya əlini salır karmana ki, rais dadam sana madax (qurban) al bu şirinniyi, uşağa pilus yaz.

-Vay-vay!

-Vvayy mere, ara dadalrının evi yxildi ki!

-Ama polisların işi duzaldı. Sonra nolur bilirsaan?

-Nolurkiii?

-O polis raislarindan xam olannar mektub gönderen o herbçiya gedib hormat edillar ki, sağ olasan, bize bu qada xeyir verdin, bu da sanin şirinnih....

Burada rəhmətlik Məmməd Nazimoğlunun bir anektodu yadıma düşür. Erməni dığaları hardansa o vaxtkı "Aydınlıq" qəzetlərini ələ keçirib oxuyur, gülüllər. Birində yazılıbmış ki, kim deyir, kişi (ayıb olmasın) doğa bilməz. Olub tarixdə belə şeylər. Məs. Marks Marksizmi, Lenin Leninizmi, Stalın Stalinizmi, Hitler Faşizmi doğdu, Xruşşov da kommunizmi doğmaq istəyirdi, tutdular abort elədilər.

-Vaha. Vah, vah! Ara ba Azabecan nə doğur, onu yazmayıb, bu Mamed?

-Yox, ara, ama tazalar danışıllar. Ha, danışıllar ki, Azarbecan (ara, bunun cınsını bil- miram eli) nöyüt doğur, qaz doğur, qız doğur, duruz...

-A kul baş, duruz olmaz, turis(t) olar.

-Ha eli turis doğur.

-Ara, ba o "-izm"lardan doğmur.

-Yox, onu azqayinlaşdırıblar (milliləşmək). Yani izm olub - şina (ovşina, yevşina), ya da -çılıx (oculux, buçulux).

-çılıx na, ara?

-Qulağ as, deyə telefonu açıb çırpışdırdıqlarını əskər yoldaşlarına dinlətdirir bu razvet- çik hay. "Hə, belədi, dostlar, indi bu -çılıq şəkilçisinin yazılışının hər dörd cüründə doğa bilir ölkəmiz. Amma bunlar iki cür olur. Bir cüründə adamı hiperbolaya, başqa cüründə parabolara bürüyürlər." (atalar demiş, ho var dağa çıxarır, ho var... - yenə bu çobanlıq) Söz bura çatanda bir SOS, bir 102, bir 112, bir 103 maşının səsi bir-birinə qarışır. Sonra adam səsləri, qadın inilti̇ləri və səs kəsilir.

-Noldu, ara.

-Vallah elə bir xaos oldu ki, qorxdum, mani da tutub basallar maşına, çıxdım aradan.

-Ara cəndəmə ki, nanillar elasinnar, ama bu -çılıxdı, qarboladı, parboladı çox qaliz oldu. Ya çox şifralı danışıllar, ya taza silahlarının adıdı, ya da bunnarın başı yaman işdamağa başdıyıp.

-Ara, qorxma, na doğsalar ozlarına dayacax, onnarın heç sonrakı axlı da biza bir şey eda bilmaz. Ha sonra gor na yazır bu Mamed.

-Deyir, yox o demir, yazır ki, bir veteran deyir, bir meşə uçun nemeslarnan vuruşurdux. Meşa aldan ala keçdi, biz aldıx, onnar aldı, axırda meşabayi galıb ikimizin da dadasını söyüb qovdu meşadan.

-Ara bu çox darin oldu ha. Yani indi bu meşabayi kim?

-Qandığıma gora bunnar şair millat. İronik danışıllar. Yani biznan bu vuruşduğumuz turkları demax istiyillar.

-Olsun da onda yena bu meşabayi kim. Rusiyamı, Turkiyamı, Amerikamı?

-Mana göra bu Mamed çox bic adam. O deyir ki, bu toprak na sanın, na onun, na da heç kimin.

-Ara, bunu başqa Mamed da demişdi axı. Mammad Araz. "Dunya sanın, dunya manım, dunya heç kimin"

-Ara, mi xosa(yəni demə-demə) ara, yandım tokuldum. Onu na taar oxuyurdu, Niyamaddin. "Dunya sanın, dunya manım..."

-Ara, ba bu dunya kimin?

- Ara, mashab haqqı onnardan diri deyirdi ki, dünyanın asl sahibi var. Çox tullanıb duşmayın.

-Ara, ama o Niyamaddin. Bir vayfayı qoş ona bir qulaq asaq eli.

Telefonda Niyaməddinin mahnısı səslənir. Sonra bir saz havası. Ermənilər çorta gedib qulaq kəsilir. Arada bir "yandım, mera," deyə yankı verirlər.

-Ara san? Vrastana (Gürcüstan) getmişdin, na deyillar, onnar, Borçalı?

-Ha eli, orası da qadım ermani yurdu. Borc alı. Yanı toprağı bizdan borc aldılar. Ordan na xabar?

Orda bir Huseyn Saraclı vardı. O da ermani qusanı (aşıq) da, bilirsiz. Ha onun da bir şayirdi var. Murad Kovrak. Onun ustadından dediyi anektodları yazmışam, ga qulaq asaq.

-Ustad deyerdi ki, bir gün balaca olanda getmişdim qonşuya, arvad çuqun tiyanı qoymuşdu təndirin üstünə. Xaşıl bişirerdi. Taxta çömçəynən də qarışdırırdı. Birdən bir it gəlib şöngüdü onun qənşərində. Arvad neçə dəfə "a it, öyzə" desə də, it getmədi. Sonra çömçəyü xaşıldan çıxarıb tiyanın qırağına sıyırdı, çömçəynən itin başına vurdu. İt zəngildəyib getdi. Arvad sonra həmin çömçəni bu dəfə ətəyi ilə silib saldı tiyanın içinə, başladı qarışdırmağa. Mən də dədim ki, a ciyi, bizimkilər olseydi, o çömçəyü silmədən salardılar xaşılın içinə. Arvad da qayıtdı ki, bə, ölüm, təmizlik yaxşı şeydi.

-Hahaha..... hahaha. Ara öldüm külməkdən. Ara bunnar nə təmiz adamlar imiş. Vay, vay.

-Ara dalına qulaq as.

Müharibədə birini aparırlar davaya. Evdə bir arvadı qaler, bir də balaca oğlu. Bir qarrı-çovğunnu qış günü ana aler balasını dizinin üstünə. Baş gözünü sığallıyer. Öz-özünə deyer ki, indi mən bir söhbət açem, uşaq da bir şey desin, ovunduraq bir-birimizi, gecə də keçsin. Qayıder ki, ay oğul, görəsən indi dədən ninneyer, qar-boran, səngər buz kimi. Qabaxda duşman... Oğlan da fikirrəşer ki, dədəsi çox yekə adamdı, bütün səngəri tutuf da. Qayıder ki, hi ciyimə bax, deyersən o boyda kişidən güllə yan keçər! "yekaları qırılmadı kurtulax."

Bu arada erməninin birindən bir qıy qopur. Üzünü tutub "vay mera, ara bunnarın... Ermənini titrətmə tutur. Üzgözünə su səpib birtəhər özünə gətirirlər. -Ara sana noldu? -Ara Mubariz. Siz onu gorsaydız. Ara onu goranda manım uzaxdan dilim tutuldu. Ara bizimkilari panir kimi doğrayırdı. Bu gadanın da dadası belaymış. Yepyeka.

Növbəti anektod. Bir gün birinə toy edirlar, gəlin gəlir. Yengə bəyi gərdəyə ötürüb açarın deşiyindən başlayır marıtdamağa. Görür ki, gəlin dırmaşıb şkafın başına. Oturub orda güzgüsüylə çələnginin yanında. Oğlan nə qədər dil tökür gəlini oradan düşməyə razı sala bilmir. Axırda yengəyə, yengə anasına, anası qayınanasına xəbər göndərir. Hər kəs öz növbəsində dil tökür, xeyri olmur. Axırda mollanı çağırırlar. O da çox dil tökür, olmur, sonra soruşur ki, a bala, bir səbəbini de də, niyə düşmürsən axıııı.

-Molla əmi, sən bilsən ki, burdan düşəndə başına nə iş gələcək, düşərsən?!

Hə, molla dedim, Molla Nəsrəddin yadıma düşdü. Bir gün Molla Nəsrəddin gəlir ki, ay camaat, bu dağın dalında qızıl paylayırlar. Qaçan qaçır. Molla görür ki, heç kim qalmadı. Öz-özünə deyir, "bu qədər adam ki, bu yalana inandı, getdi dağın dalına, birdən gerçək olar. Hələ özüm də gedim, baxım."

Söz bura çatanda əvvəlki anektoddan onsuz da çorta gedən ermənilər lap özlərindən gedirlər. -Vay Astvac (Allah deməkdir). Ara sən öl, bu Molla Nasradin haydır.

-Na hay ara, o turk.

-Yox san öl hay. Kezi madağ (sənə qurban), im arev (and olsun mənasında) hay. Denan niya. Ara, biz danizdan daniza Hayıstan deya bir yalan uydrmadıqmı?

-Sonra bu yalana özümüz da inanmadıxmı?

-Ara, bu Molla da öz yalanına bela inanır daaa. Bu ya Mollayan Nasreddi, Ya da Molla Nasredyan. Turklar onu bizdan hapişirip Molla Nasraddin elayip.

Telefondan yeni səslər:

-Bir gün beynəlxalq simpozium olacaq. AŞ-MAŞ, ATƏT-MATƏT və s. Dövlət başçələrı yollanır ora. Elə olur ki, şirlərin, ayıların, canavarların və dovşanların padşahı bir kupeyə düşür. Bir az yol gedirlər. Dovşanların padşahı sağınasoluna baxır. "Qardaşlar, mən deyirəm ki, indi bir azdan bizdən birinin ağzı cırılacaq." Şir: "Məni deyirsəəən?" "Yooo ox." Canavar: "Onda məni deyirsən." Dovşan: "Yox-yox, Allah eləməsin." Şirlə Canavar dönüb mənalı-mənalı Ayıya baxırlar. "Səni deyillər!" Ayı ayağa durub dovşanın yaxasından yapışır. Qaldırıb göyə çırpır vaqonun divarına. "Svolıç." Dovşan "ıyy" eləyib düşür yerə. Bir xeyli keçir. Özünə gəlir. Sonra o üç həmkarına baxıb "Sizə dedim axı indi birimizin ağzı cırılacaq!"

-Ara bu Davşan nə ürəyi yeyib belə? Nə işi var onların arasınada?

-Na bili ara, görsan özundan soruşarsan.

Bir dəfə heyvanlar pərən-pərənə düşür. Hərə var gücü ilə bir tərəfə qaçır. Dovşan da bunların içində. Biri dovşandan soruşur: (Hara belə, nə məsələdi?) Dovşan: Şirin qulağını kısıblər. Şübhəliləri tuturlar.

Hala dalına qulaq as: Bunnarın an çox anekdot yeri çayçılardır. Çayçıda otur, bir çaynik çayı qoy qabağına. Saatdarnan galib gedəni izlə, sasini yaz, şaklini çak. Kimsa sana ilişmaz. Razvedçikin an qorxusuz, rahat yeri ela buradı. Qaqaşlar oturub gap edir. Man də gizlica çakiram. İndi qulaq as. Dəlilərdən danışıllar. "Bir gün bir dəli divara Leninin şəklini mıxlayacaq. Biri aşağıdan mıxları verir, digəri də nərdivana dırmaşıb şəkli mıxlayır. Aşağıdakı mıxın ucunu həmişə divara doğru verir. Nərdivandakı da bu istiqamətdə şəkli yuxarıdan aşağı divara mıxlayır. Sonuncu mıxı tərsinə verir. Nərdivandakı dəli mıxa bir xeyli baxır, analiz edir və "Ə sən doğrudan dəlisən, o biri divarın mıxını mənə vermisən, bunu dəyiş," -deyir.

-Vah-vah, ara, bunnarın dalisi bela axıllıdısa, gör onda axıllıları na qada axıllıdı...

-San hala, polislara bax.

**(Davamı var)**